**Dünya Bankı Azərbaycanda Məşğulluğa Dəstək Proqramının genişləndirilməsi üçün əlavə maliyyələşdirməni təsdiqləyib**

**WASHINGTON, 29 iyul 2024-cü il**—Dünya Bankının İcraçı Direktorlar Şurası bu gün hazırda icra olunan Azərbaycanda Məşğulluğa Dəstək Layihəsini (AMDL) genişləndirmək üçün 150 milyon ABŞ dolları məbləğində əlavə maliyyələşdirməni təsdiqləyib. Layihənin məqsədi məcburi köçkünlər, qadınlar, gənclər və uzunmüddətli işsizlərə xüsusi diqqət yetirməklə əhalinin ən həssas qrupları üçün özünüməşğulluq imkanlarını təşviq etməkdir.

Son üç il ərzində 5000-dən çoxu qadın olmaqla 15 000 benefisiar öz bizneslərinə başlamaq üçün alət dəstləri alıb. Benefisiarların qiymətləndirilməsinə əsasən, AMDL iştirakçılarının 70%-dən çoxu layihə tərəfindən təmin edilmiş aktivləri aldıqdan sonra azı 24 aydır bizneslərini davam etdirir. Bu uğura əsaslanaraq, bu gün təsdiqlənmiş maliyyələşdirmə mövcud məşğulluq proqramlarını və xidmətlərini genişləndirəcək və daha çox insana xidmət etmək və AMDL çərçivəsində biznesin davamlılığını təşviq etmək üçün başqa mexanizmləri hazırlayacaq və sınaqdan keçirəcək.

"*Azərbaycan həssas qruplar üçün əmək bazarının nəticələrini yaxşılaşdırmaq üçün səylər göstərir. Bununla belə, bacarıq uyğunsuzluğu, yüksək qeyri-formallıq və qadınlar arasında yüksək işsizlik kimi problemlər hələ də qalmaqdadır*", - **Dünya Bankının Azərbaycan üzrə ölkə meneceri Şteffi Ştallmeister bildirib**. "*Bu layihə ölkədə daha inklüziv, özəl sektorun aparıcı rol oynadığı iqtisadi artımı təmin etmək üçün bu problemlərin həllinə kömək edir*".

Əlavə maliyyələşdirmə iqtisadi fəaliyyətin şaxələndirilməsini və şoklara qarşı dayanıqlılığı təşviq etmək üçün istehsal və xidmətlər kimi yeni sektorları əhatə etməklə Azərbaycanın Özünüməşğulluq Proqramına dəstəyini davam etdirəcək. Bundan başqa, bu maliyyələşdirmə benefisiarlara öz bizneslərini genişləndirmək üçün nağd vəsaitlərdən istifadə etməyə imkan verən təkmilləşdirilmiş nağd qrantlar mexanizmini sınaqdan keçirməyə kömək edəcək.

AMDL üçün əlavə maliyyələşdirmə həm də Azərbaycan Dövlət Məşğulluq Agentliyinin iş axtaranlar üçün xidmət və proqramlarının çeşidini genişləndirmək imkanı yaradacaq. Bu yeni dəstək vasitəsilə Agentlik iş yerində təlim, əmək haqqı subsidiyaları, şagirdlik proqramı, peşə hazırlığının inkişafı və seçilmiş peşələr üzrə sertifikatlaşdırma xərclərinin kompensasiya edilməsi kimi əlavə aktiv əmək bazarı tədbirlərini həyata keçirəcək. Bu proqramların işaxtaranların, o cümlədən qadınların

və digər həssas əhali qruplarının məşğulluğunu stimullaşdıracağı, onların istehsal və xidmət sahələrində işləmək imkanlarını artıracağı gözlənilir.

**Layihəni hazırlayan Dünya Bankı komandasının rəhbəri Mirey Ovadiya** bildirmişdir ki, "*Bu yeni maliyyələşdirmə ilə biz bacarıqların inkişafı və işaxtaranlar və işəgötürənlər üçün stimulların dəstəklənməsi üçün aktiv əmək bazarı tədbirlərinin həyat qabiliyyətini yoxlayacağıq. Bu yanaşma ilə Azərbaycan gələcək üçün daha məhsuldar və davamlı iş yerləri yarada bilər".*

AMDL-in insan kapitalı potensialının artırılması, habelə məşğulluq xidmətlərinin effektivliyinin gücləndirilməsi, bacarıqların inkişaf etdirilməsi və inklüzivlik kimi Azərbaycanın əsas inkişaf prioritetlərinin həyata keçirilməsinə töhfə verəcəyi gözlənilir. Bundan əlavə, layihə həm də Dünya Bankı Qrupunun Azərbaycan Hökuməti ilə hazırda müzakirə olunan Azərbaycan üzrə Ölkə Tərəfdaşlıq Çərçivəsində (2025-29-cu illər) vurğulanan daha məhsuldar və inklüziv iş yerlərinin təşviqi məqsədinə uyğundur.